RICH DAD™

# 21-ci ƏSRİN BİZNESİ


ROBERT KİYOSAKİ

Con Fleminq və Kim Kiyosaki ilə birlikdə



qanun nəşriyyatı

RICH DAD™

# THE BUSINESS OF THE 21st CENTURY

**ROBERT T. KIYOSAKI**

With John Fleming and Kim Kiyosaki

Kitabda biznesin yeni növündən – şəbəkə marketinqindən danışılır. Şəbəkə marketinqi insanın öz maliyyə imkanlarını nəzarətə alması deməkdir. Biz bununla gələcək taleyimizi müəyyən edirik. İnsanın öz şəxsi biznesinə sahib olmasının üstünlükləri nədir? Sualın ən real cavabı oxucusuna təqdim olunub. Artıq siz təkcə əlinizdəki işi deyil, özünüzü də dəyişməyə nail olacaqsınız. Üstəlik dəyişikliyin nə qədər vacib olduğunu anlayacaqsınız. Kitabın bəlli bir oxucu çevrəsi yoxdur, çünki o, hamı üçündür.

**ROBERT T. KIYOSAKI. With John Fleming and Kim Kiyosaki**
**THE BUSINESS OF THE 21ST CENTURY**
**ROBERT KİYOSAKİ. Con Fleminq və Kim Kiyosaki ilə birlikdə**
**21-ci ƏSRİN BİZNESİ**
Bakı, Qanun Nəşriyyatı, 2022, 192 səh.
Janr: özünüinkişaf
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 17.09.2022

| | |
|---|---|
| Tərcüməçi: | Kamil Kamilli |
| Redaktor: | Arzu Soltan |
| Korrektorlar: | Şəhla Yarıbəyli,<br>Ülviyyə Emin |
| Texniki redaktor: | Asifə Əfəndiyeva |
| Mətn dizaynı: | Aytac Abdul |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN978-9952-38-230-3

© Qanun Nəşriyyatı, 2022
© 2011 by Robert T. Kiyosaki
This edition published by arrangement
with Rich Dad Operating Company, LLC.

Bu kitabın Azərbaycan dillinə tərcümə və yayım
hüquqları QANUN nəşriyyatına məxsusdur. Kitabın təkrar
və hissə-hissə nəşri “Müəlliflik hüququ və əlaqəli hüquqlar
haqqında” Azərbaycan Respublikasının Qanununa ziddir.

## *İthaf*

Bu kitabı – *"21-ci əsrin biznesi"*ni həyatının yol ayrıcında olan – cari iqtisadi böhrandan zərər görmüş və gələcəyini maddi baxımdan təmin etmək istiqamətində özünü köməksiz hiss edən milyonlarla şəxsə ithaf edirəm. Bilməyinizi istəyirəm ki, necə görünməsindən asılı olmayaraq, bu, gələcəyinizin idarə edilməsini ələ keçirməyiniz üçün ən yaxşı zamandır. Həyatımı insanlara maliyyə azadlıqlarını necə qazanmağı tədris etməyə sərf etmişəm və bilirəm ki, *"Varlı ata"* seriyasından olan digər kitablar kimi, bu kitab da sizi qarşıdakı illərdə zənginlik yaratmaq və onu dayanıqlı etmək üçün vacib olan biliklərlə təmin edəcək. Pulun necə işləməsi gerçəyini və 21-ci əsrdə sizin üçün mövcud olan biznes fürsətlərini öyrəndikdən sonra arzuladığınız həyatı qurmağa başlaya biləcəksiniz.

# *Mündəricat*

Minnətdarlıq ........ 7
Giriş ........ 8

**Birinci hissə**
**Gələcəyinizə nəzarəti öz əlinizə alın**

1. Qaydalar dəyişib ........ 12
2. Gümüş üzlük ........ 21
3. Harada yaşayırsınız ........ 29
4. Əsas maliyyə dəyərləriniz ........ 35
5. Sahibkarın düşüncə tərzi ........ 43
6. Nəzarəti ələ keçirmək vaxtıdır ........ 50

**İkinci hissə**
**Bir biznes – səkkiz sərvət yaratma aktivi**

7. Biznesdə keçirdiyim illər ........ 58
8. Söhbət gəlirdən yox, gəlirin gətirdiyi aktivlərdən gedir ........ 67
9. Aktiv #1: Real biznes təhsili ........ 74
10. Aktiv #2: Fərdi inkişafın mənfəətli yolu ........ 83
11. Aktiv #3: Xəyal və dəyərlərinizi paylaşan dostlar çevrəsi ........ 93
12. Aktiv #4: Öz şəbəkənizin gücü ........ 97
13. Aktiv #5: Çoxaldıla və genişləndirilə bilən biznes ........ 105
14. Aktiv #6: Misilsiz liderlik bacarıqları ........ 114
15. Aktiv #7: Həqiqi sərvət yaratmaq mexanizmi ........ 123
16. Aktiv #8: Böyük xəyallar və onları gerçəkləşdirmək qabiliyyəti ........ 132
17. Kim Kiyosakinin  qadınların parladığı biznesi ........ 139

**Üçüncü hissə**
**Gələcəyiniz indi başlayır**

18. Ağılla seçim edin ........ 152
19. Bunun üçün nə lazımdır ........ 162
20. Ömür sürmək ........ 175
21. 21-ci əsrin biznesi ........ 182

## *Minnətdarlıq*

Həyat yoldaşım Kimə həmişə sevgi və dəstək göstərdiyinə görə, eyni zamanda "Varlı ata" ailəsinə maliyyə təhsili ismarıcımı yer kürəsindəki milyonlarla insana çatdırmaqda mənə yardımçı olduqlarına görə təşəkkür etmək istərdim.

Həmçinin şəbəkə marketinqi barədə dəyərli töhfələri üçün Con Feleminqə və bu kitabı ərsəyə gətirməkdə yardımları üçün Stüart Conson, Rid Bilbrey və VideoPlus komandasına minnətdarlığımı bildirmək istəyirəm.

Son olaraq öz əməklərini və coşğularını bu layihəyə qatdıqları üçün Con Devid Mann və J. M. Emmertə təşəkkür edirəm.

## *Giriş*

İqtisadiyyat xaos içindədir: iş yerində probleminiz çoxdur – əgər hələ də bir işiniz varsa. Və bilirsiniz nə var? Bunu illərdir deyirəm.

Çoxları harayımı ancaq qlobal maliyyə böhranından sonra eşitdi. Fəqət bu kitab heç də niyə və ya necə hər şeyin birdən-birə cəhənnəmə çevrilməsi barədə deyil. Niyə bu pis xəbərin, əslində, çox yaxşı xəbər olması barədədir (əgər onunla necə davranacağınızı bilirsinizsə).

Biznes barədə iki nəfərdən  dərs almışam: ziyalı və çox hörmətli hökumət məmuru olan atamdan və ən yaxın dostumun səkkizinci sinifdə məktəbi yarımçıq qoyaraq sonradan milyonçu olmuş atasından. Bioloji atam bütün həyatı boyu maliyyə problemlərindən əziyyət çəkmiş və uzun illər davam edən əməyinin qarşılığında cüzi sayıla biləcək "sərvətlə" dünyadan köçmüşdü: ən yaxın dostumun atası isə Havay ştatının ən varlı adamlarından birinə çevrilmişdi.

Bu iki nəfəri özümün "kasıb atam" və "varlı atam" olaraq təsəvvür edirdim. Həqiqi atamı sevir və ona heyranlıq duyurdum və söz vermişdim ki, əlimdən gəldiyi qədər onun kimi uğur-

suzluqlar və xəcalətlərlə dolu yollardan keçən insanlara kömək edəcəyəm. Evi tərk etdikdən sonra bütün növ təcrübələri sınaqdan keçirdim. Vyetnamda ABŞ Hərbi Dəniz Qüvvələrinin pilotu kimi xidmət etdim. "Xerox" şirkətində ən pis satış nümayəndəsi kimi işə başlayıb dörd il sonra ən yaxşısı olaraq ayrıldım. "Xerox" macəramdan sonra bir neçə milyon dollarlarla dəyəri olan bizneslərin əsasını qoydum və 47 yaşımda öz ehtirasımı (ortabab həyat yaşayaraq qaşqabaqlı şəkildə pensiyaya çıxmaq yerinə, necə sərvət yaratmağı və arzuladıqları həyatı yaşamağı insanlara öyrətmək) reallaşdırmaq üçün təqaüdə çıxmağa nail oldum.

1997-ci ildə təcrübələrimi kiçik bir kitabda topladım. Yəqin ki, buna qədər kitablarımla tanış olanlarınız var: *"Varlı ata, Kasıb ata" New York Times* bestseller siyahısında zirvəyə qədər yüksəldi və dörd ildən artıq bir müddətdə öz yerini qorudu: kitab "bütün zamanların ən çox satılan biznes kitabı" adlandırıldı.

Ondan sonra böyük bir *"Varlı ata"* seriyası qələmə aldım və baxmayaraq ki hər bir kitabın nəzər nöqtəsi nisbətən fərqlidir, amma onların hamısı birinci kitabın verdiyi mesajı təkrarlayır və əlinizdə tutduğunuz bu kitabın da mərkəzində həmin mesaj dayanır:

*Öz maliyyə məsələlərinizin ipini əlinizdə saxlayın, ya da həyatınızın geri qalanında əmrlər almağa hazır olun... Ya pulun ağası, ya da köləsisiniz. Seçim sizindir.*

Həyatımda həqiqi sərvəti necə yaratmağı mənə göstərən təcrübələrim və mentorlarım olduğu üçün həddən artıq şanslıyam.

Nəticədə bir daha işləmək öhdəliyindən özümü xilas etdim. Həmin vaxtadək ailəmin gələcəyini qurmaq üçün işləyirdim. O vaxtdan bəri *sizin gələcəyinizin* qurulmasına kömək etmək üçün işləyirəm.

Ötən on ildə həyatımı həqiqi sərvəti necə yaratmağı öyrənməklə 21-ci əsrdə insanlara həyatlarını tamamilə dəyişdirmələri üçün ən effektiv və praktiki yolları tapmaqda kömək etməyə həsr etmişəm. *"Varlı ata"* kitablarımız vasitəsilə ortaqlarım və mən biznes və investisiyanın bir çox növü və forması barədə yazmışıq. Lakin bütün bu illərin intensiv araşdırmaları ərzində xüsusi bir biznes modelinə rast gəlmişəm ki, onun maksimal sayda insanın maliyyə həyatları, gələcəkləri və talelərinin idarəsini ələ keçirməsi üçün ən böyük vədi verdiyinə inanıram.

Bir məsələ daha. *Həqiqi* sərvət dedikdə təkcə pul haqqında danışmıram. Pul onun bir hissəsi olsa da, hamısı deyil. Həqiqi sərvət yaratmaq *yaradıcı* haqqında olduğu qədər, həm də onu *yaradan* haqqındadır.

Bu kitabda nə üçün öz biznesinizi və tam olaraq hansı növ biznesi yaratmalı olduğunuzu göstərəcəyəm. Hərçənd bu, sadəcə, işlədiyiniz biznes növünü dəyişdirməklə bağlı deyil: həm də özünüzü dəyişdirmək barədədir. Mən sizə özünüz üçün mükəmməl biznesi böyütmək yolunda ehtiyacınız olanları tapmağın yolunu göstərə bilərəm, lakin biznesinizin böyüməsi üçün siz özünüz də onunla birlikdə böyüməli olacaqsınız.

21-ci əsrin biznesinə xoş gəlmisiniz.